# QAZILAR ŞURASININ ETİKA KOMİSSİYASI HAQQINDA ƏSASNAMƏ

1.Bu əsasnamə Qafqaz Müsəlmanları İdarəsinin (bundan sonra - QMİ) Qazılar Şurası yanında Etika komissiyasının (bundan sonra – komissiya) yaradılması, səlahiyyətləri, ləğvi və onun fəaliyyəti ilə bağlı digər məsələləri tənzimləyir.

2. Komissiya QMİ-nin Qazılar Şurasının iclasında, QMİ-nin mərkəzi aparatının işçilərindən və onun yerli qurumlarında çalışan şəxslər arasından seçilərək müddətsiz olaraq yaradılır.

3. Komissiya üzvlərinin sayı və fərdi tərkibi QMİ Sədrinin təklifi ilə, *məzhəb mənsubiyyəti nisbəti* gözlənilməklə Qazılar Şurasının iclasında müəyyən edilir.

4. Komissiyanın üzvü iclasda iştirak edən Qazılar Şurası üzvlərinin azı üçdə ikisinin səs çoxluğu ilə Komissiya üzvlüyündən çıxarıla bilər.

5. Müəyyən səbəblərə görə öz vəzifəsini icra edə bilməyən komissisya üzvünün səlahiyyəti İdarənin Sədri tərəfindən Qazılar şurasının iclasınadək müvəqqəti olaraq işçilərdən birinə həvalə edilə bilər.

6. Komissiya daxil olmuş sorğular, habelə QMİ Sədrinin və Qazılar Şurasının tapşırığı əsasında istənilən vaxt öz iclaslarını keçirə bilər. İclaslar komissiyanın sədri tərəfindən çağırılır.

7. Komissiyanın iclasında üzvlərin ən azı yarısı iştirak etdikdə o, səlahiyyətli sayılır.

8. Komissiyanın iclaslarının keçiriıməsinə azı 3 gün qalmış iclasın yeri, vaxtı, gündəliyi və gündəliklə tanış olmaq qaydası barədə Komissiya üzvlərinə məlumat verilir.

9. Komissiya iclaslarına QMİ sədri tərəfindən təyin edilən sədr rəhbərlik edir. O, Komissiya iclaslarının protokollarının aparılmasını təmin edir, qəbul edilmiş rəyləri imzalayır və Komissiyanın işinin təşkili ilə bağlı digər səlahiyyətləri həyata keçirir.

Sədr hər hansı səbəbdən iclasa sədrlik edə bilmədikdə bu vəzifə Komissiya üzvlərinin birinə həvalə edilə bilər.

10. İclasda qərarlar üzvlərin adi səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda iclasa sədrlik edənin səsi həlledici sayılır. Səsvermənin qaydası iclas tərəfindən müəyyən edilir.

11. Komissiyanın qərarları sədr tərəfindən imzalanır və dərhal qüvvəyə minir.

12. Komissiyanın əsas səlahiyyətinə QMİ sədrinin tapşırıqları əsasında aşağıdakı məsələlər barədə araşdırma aparıb müvafiq rəy hazırlamaqdan ibarətdir:

12.1.QMİ mərkəzi aparatının və təşkilati tabeçiliyində olan dini qurumların, habelə onun tərəfindən təsis olunmuş təşkilatların işçilərinin (axundların, imamların, dini ayin icraçılarının və digər din xadimlərinin, habelə icma sədrlərinin və digər vəzifəli şəxslərin), dini (şəri) və mənəvi normaları pozmaları haqqında müraciətlər;

12.2. Dini qurumların və onların üzvlərinin fəaliyyətləri zamanı dini (şəri) normaları pozmaları haqqında müraciətlər;

12.3. Bu Əsasnamənin 12.1-12.2-ci bəndlərində göstərilən şəxslərin dinlərarası və məzhəblərarası təfriqə yaratmaları, cəmiyyət üçün zərərli ideyaları yaymaları, din-dövlət münasibətlərində pozuculuğa və təfriqəyə cəhd göstərmələri və digər bu kimi ictimai-təhlükəli əməllərə yol vermələri ilə bağlı daxil olmuş müraciətlər;

12.4. QMİ mərkəzi aparatının və təşkilati tabeçiliyində olan dini qurumların habelə onun tərəfindən təsis olunmuş təşkilatların işçilərinin (axundların, imamların, dini ayin icraçılarının və digər din xadimlərinin, habelə icma sədrlərinin və digər vəzifəli şəxslərin), dini icmaların həvəsləndirilməsi (mükafatlandırılması), o cümlədən “İlin ən yaxşı axundu”, “İlin ən yaxşı imamı”, “İlin ən yaxşı islam dini icması” fəxri adlarının verilməsi ilə bağlı müraciətlər.

13. Komissiyanın rəyi aşağıdakılar üçün əsas ola bilər:

13.1. Əsasnamənin 12.1-12-3-cü bəndlərində nəzərdə tutulan işçilərə intizam tənbehi tətbiq etmək, o cümlədən onlarla əmək müqaviləsinə xitam vermək, həmin bəndlərdə nəzərdə tutulan dini qurumların isə ləğvi barədə qanunvericiliklə müəyyən edilmiş qaydada məsələ qaldırmaq;

13.2. Əsasnamənin 12.4-cü bəndində nəzərdə tutulan hallarda həvəsləndirmə (mükafatlandırma) barədə məsələ qaldırmaq.

14. Bu Əsasnamənin 13-cü bəndində göstərilən məsələlərə QMİ Sədri tərəfindən baxılır və qərar qəbul edilir. Həmin qərardan maraqlı tərəf Qazılar Şurasına şikayət verə bilər.

15. Komissiya üzvlərinin ona həvalə edilmiş işin araşdırılması üçün zəruri olan sənəd, material və arayışları QMİ-nin və onun qurumlarının vəzifəli şəxslərin tələb etmək, barəsində araşdırma aparılan işçidən araşdırılan işlə bağlı izahat almaq, qərar qəbul edilərkən xüsusi rəyini bildirmək, komissiyanın fəaliyyətinin təkmilləşdirilməsi barədə QMİ-yə Qazılar Şurasına və Komissiyaya təkliflər vermək səlahiyyətləri vardır.

16. Komissiya üzvləri öz üzələrrinə düşən vəzifələrin düzgün icrasına görə məsuliyyət daşıyır.

17. Komissiyanın işi müəyyən edilmiş qaydada protokollaşdırılır və arxivə təhvil verilir.